Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# MİKAYIL MÜŞFİQ

(Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə)

***Biblioqrafiya***

**Bakı – 2018**

**KBT** Я19:Ш5(2=Аз)7-44
**UOT** 016:821.512.162

**Tərtib edənlər:** **Həliməxatın Manafova**
**Gülbahar Misirova**
**Günel Əfəndiyeva**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*

**Mikayıl Müşfiq** (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə): biblioqrafiya /tərt. ed.: H.Manafova, G.Misirova, G.Əfəndiyeva; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- 248 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin anadan olmasının 110 illiyinə həsr etdiyi biblioqrafiyada şairin kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, həyat və yaradıcılığı haqqında zəngin material toplanmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978 9952 476 74 3**

**© M.F.Axundov adına Milli Kitabxana, 2018**

# Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin iyun ayında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadənin) anadan olmasının 110 illiyi tamam olur.

Böyük şair Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirmişdir. Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına dəyərli töhfələr vermiş görkəmli şair Mikayıl Müşfiqin anadan olmasının 110-cu ildönümünün layiqincə qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mikayıl Müşfiqin 110 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 may 2018-ci il**





# Tərtibçidən

2018-ci ildə Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadənin) anadan olmasının 110 illiyi tamam olur. Müşfiqi bütün nəsillərə sevdirən və adını yaşarı edən onun ürəkdən gələn səmimiyyət dolu poeziyasının xalq ruhu ilə bağlılığı, doğma Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm etməsi, qəlbləri ehtizaza gətirməsidir. Müşfiq ədəbiyyat tariximizdə, xalqımızın yaddaşında və hamının qəlbində büllur kimi saf, axıcı misraları ilə bir nəğmə kimi yaşayır.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı bu göstərici onun haqqında ilk fundamental biblioqrafiyadır.

Biblioqrafiyada "Mikayıl Müşfiqin həyat və yaradıcılığının əsas tarixləri", "Mikayıl Müşfiq poeziyasından nümunələr", "Görkəmli şəxsiyyətlər Mikayıl Müşfiq haqqında" bölmələri, şairin ədəbi fəaliyyətini, həyat və yaradıcılığını əks etdirən 1926-2018-ci illərdə dərc olunan materiallar öz əksini tapmışdır.

Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər tərtib olunmuşdur.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** contact@anl.az;

## Müşfiq ənənəsi yaşayır

Mikayıl Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdən gəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığı, Azərbaycanımızı böyük məhəbbətlə tərənnüm edib sevdirməsi, vətəndaşlığı, cazibə qüvvəsilə oxucuların qəlbini ehtizaza gətirməsidir. Səmimiyyətlə dolu poeziyası barədə şair özü müasirlərinə müraciətlə yazıb:

Yazmaram ürəyim sizi anmasa,
Sizin eşqinizlə alovlanmasa;
Burdaca el durub məndən sordu ki:
Gözdən yaş çıxarmı ürək yanmasa?
Qönçə açılarmı, bahar olmasa?
Şölə titrəyərmi, ruzgar olmasa?
Bu nəğmə ruhumdan qoparmı bilməm,
Mənə ilham verən dostlar olmasa?

Söz yox, ürəkdən yazdığındandır ki, ürəklərdə yaşayır Müşfiq. Axı bu onun bir şair kimi ən böyük arzusu idi:

Hər kəs bilir həyatın sonu ölümdür,
Ah bu qəmli dəyişmə yaman zülümdür.
Şerim! Bu gülünc oyun bəllidir yarın,
                                        bizi də bəklər,
Sən də öl mənim kimi, fəqət məzarın
                                        olsun ürəklər!

Vətəndaş şairdi, cəsarətliydi, uzaqgörəndi Müşfiq. Milli musiqi alətlərimizdən olan tarın konservatoriyada tədris olunması qadağan ediləndə, “İnqilab və mədəniyyət” jurnalı özünün 1929-





cu il ikinci nömrəsindəki “Tar konservatoriyadan çıxarıldı” sərlövhəli xəbərində: “Azərbaycan Dövlət Konservatoriyasını qüvvətləndirmək məqsədilə AXMK bir çox qərar qəbul etmişdir. Bu qərarlara görə məcburi dərs kursu olan tarın öyrənilməsi konservatoriyanın bütün dərəcələrində tədris planlarından götürülür və konservatoriya yanında olan Şərq orkestrosu ləğv olunur” yazanda Müşfiq sinəsini qabağa verdi: məşhur “Tar” şeirini xalqına bəxş elədi, tarın şöhrətini bir az da qaldırdı:

Oxu, tar, oxu tar!..
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qədar...
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Səni kim unutar?
Ey geniş kütləmin acısı, şərb əti –
Alovlu sənəti.

“Tar” şeiri vətəndaş şairin uzaqgörənliyini göstərməklə bərabər, həm də sənətkar cəsarətini numayiş etdirən əsərdir:

Çoxları üzünə durdular,
Könlünü qırdılar.
...Üstündən bir qara yel kimi əsdilər,
Səsini kəsdilər.
Daşlandı çəkənlər nazını,
Beləcə qırdılar aşığın sazını.

Müşfiq 20-ci illərin axırı, 30-cu illərin əvvəlində klassiklərimizə etinasızlığı görəndə qələmə sarıldı, “Yeni il” şeirində dahi lirik haqqında ürək sözlərini bəyan elədi:

Yazalım, özümüzü öyməyəlim,
Füzuliyə dəyməyəlim.

Axı Müşfiq əsl varis kimi şifahi xalq ədəbiyyatımızı dərindən sevmiş, klassik ədəbiyyatımıza böyük məhəbbət bəsləmiş, bunların yaxşı ənənələrindən həmişə öyrənməyin, yeni şəraitdə onları davam və inkişaf etdirməyin ən ardıcıl tərəfdarlarından olmuşdur.

Müasirini özünü dərk edən, mühitinin hadisələrindən baş çıxaran, "xalqilə titrəyən, xalqilə gülən..." görmək istəyən Müşfiq "Alqış varlığını duyan insana!" misrasını heç də təsadüfi yaratmamışdı. Özünü dərk edən insanın əzəli, əbədi, nəcib sifətlərindən biri əməyə məhəbbətdir. Məhz əməyə bağlılıq insanı torpağı layiqilə dərk etməyə, ona səcdə etməyə gətirib çıxarır. Şairə görə əmək insana güc verir. Insan gücü ilə yaşayışını asanlaşdırır, gözəlləşdirir. "Özündən alışan, özündən yanan, – hər sabah hamıdan erkən oyanan, iş başına qoşan" insanları şair bəxtiyar hesab edir.

Milli musiqi alətlərimizin göz bəbəyi kimi qorunması və əmək mövzuları ilə yanaşı, M.Müşfiq insanın böyüklüyü, maarif, müəllim nüfuzu, səfilsərgərdan həyat keçirən uşaqların himayəyə alınması, məktəblərə cəlb olunması, qayğıkeşlik, qaynar gənclik və onun düzgün tərbiyə olunması, vətən və onun tanınmasında, yüksəlməsində iz qoyan şəxsiyyətlərin ucalığı, vətəndaşlığı, sənət və sənətkar, həyat eşqi, təkliyin acı aqibəti, təmiz, saf məhəbbəti, ülviliyi və s. məsələlər haqqında da yazmış, tutarlı poetik sözünü demişdir.

Günlərim keçməyir ancaq əməklə,
Xəyalım göyləri seyr eyləməklə
Buludlar ömrümün karvanı olur,
Fikrim o karvanın sarvanı olur.

Sanıram ulduzlar həmvətənimdir,
Demək, yer də mənim, göy də mənimdir,
Hüzurumla cahan nə bəxtiyardır.





Axırıncı misraya diqqət yetirək: insan yox, cahan insanın hüzurunda olmaqla özünü bəxtiyar saymalıdır. Bu, Müşfiq poeziyasında insana verilən qiymətin ən böyük təzahürü deyil də bəs nədir?

Füzuli yüksəldi
əsrinin fövqünə
Sığmadı dəhası
Bağdadın üfüqünə.

O güldü-ağladı, ağladı-güldü,
Gülüşü hıçqırdı, fəryadı güldü.
Onun pərvazına pərvaz çatarmı?
Güclü avazına avaz çatarmı?

Altındaydı sözün səmənd atları,
Çapanda titrərdi göyün qatları.
O ki söz atından tərpəndi düşdü,
Sanki şerimizin bir bəndi düşdü.

Bu misralar torpağımızın, mədəniyyətimizin, dilimizin inkişafında, tanınmasında müəyyən izləri, payları olan dahi sənətkarlarımız Füzuli, Sabir, Cəfər Cabbarlı kimi şəxsiyyətləri qabarıq şəkildə nəzərimizdə canlandırır, onları bir az da sevdirir.

Yaxud onun Kefli İskəndərin dili ilə Cəlil Məmmədquluzadə yaradıcılığının şah damarını necə də oxucular qarşısında nümayiş etdirdiyinə diqqət yetirək:

"Ölüb – a!" – deyərək qışqırır cahan,
Qalxmaz Fərhad kişi ağır yuxudan...
Ac başım, dinc başım, səbr, təvəkkül,
Çırpınmaq bilməyən xəstə bir könül...
Qaranlıq qəlbimiz günəşə həsrət,
Qurulmuş dirilik baxt üzərində,

Basmış ruhumuzu kəsalət bizim,
Vurur nəbzimizdə ətalət bizim.

Ədəbiyyatın, sənətin bitib-tükənməyən, tükənməyəcək, əzəli və əbədi mövzusunda, sənətkarların bütün zamanlarda, dönə-dönə müraciət etdikləri bəşəri mövzuda, məhəbbət mövzusunda Müşfiq də yazıb-yaratmışdır. Onun bu əsərlərində məhəbbətin sehri, ucalığı, sevdanın "sərin ataş"liliyi, ümid qapılarına dikilən baxışlar, sevən gəncin ürəyini dərindən tutub qoparan sevgilisinin gül əllərindən ərkyana giley-güzarı, şikayəti, "hicran ümidinə" qalmaq, hicrandan nicat gözləmək, qısqanclığın qəlbi yaxıb-yandırması, qəlbdə fırtınalar qoparması, məhəbbətin neçə-neçə çaları, rəngi, acısı, şirini öz ifadəsini tapmamışdırmı?! Emosional, musiqili, şairanə ifadəsini! "Bir də baxsan mənə" şerində belə bir bənd var:

Baxışın qəlbimi incitmişdir,
Bu baxışdan, bu duruşdan əl çək.
Bir də baxsan mənə, iş bitmişdir;
Bir də baxsan mənə, fikrim dönəcək.

Az qala sevən gəncə demək istəyirsən: çox özündən demə, fikrin dönməyəcək, hələ sevdiyinin baxışı, duruşu sənin qəlbini çox incidəcək, sən də dözəcək, dözəcəksən. Başqa əlacın yoxdur. Axı sən sevirsən. Sevirsən!

Qısqanclıq haqqında çox yazılıb, yazılır və yazılacaq. Müşfiqin lirik qəhrəmanı da sevdiyini qısqanır. Yaman qısqanır. Kimə? Nəyə görə? "Yenə o bağ olaydı!" şeirinə müraciət etsəniz bunu görərsiniz:

Yenə o bağ olaydı, yenə o qumlu sahil,
Sular ötəydi dil-dil.
Saçın kimi qıvrılan dalğalara dolaydım,
Dalıb ilham alaydım.





Əndamını həvəslə qucaqlarkən dalğalar,
Qəlbimdə qasırğalar,
Fırtınalar coşaydı, qısqanclıqlar doğaydı,
Məni hirsim boğaydı;
Cumub alaydım səni dalğaların əlindən,
Yapışaydım belindən;
Xəyalımız üzəydi sevda dənizlərində,
Ləpələr üzərində
İlhamımın yelkəni zərrin saçın olaydı,
Sular xırçın olaydı.

Necə də təbiidir, səmimidir, insanidir, ürəkdən gələndir bu sözlər. Ürəkdən gəldiyi üçün də təsir edir, birbaşa ürəklərə gedir. Ayrı cr mümkün də deyil.

Gözəl təbii mənzərələr, lirik peyzaj yaratmaq ustasıdır Müşfiq.

Ulduzlar ətrafa nur səpələr,
Bir bölük uşaqdır şən ləpələr
Onların əlində top kimi ay.
Sevgilim, başında ağ kəlağay
Sahilə gəl,
Seyr elə gəl.

"Dəvət" şeirindən götürülən bu parçada hər şey göz qabağında deyilmi? Hələ buradakı istiarəyə (ləpələrin uşaqlara oxşadılması), bənzətməyə (ayın topa oxşadılması) diqqət edin. On dörd gecəlik ayın (topa oxşadıldığı üçün bizdə bu təsəvvür yaranır) ziyası altında titrəşən şən ləpələr (burada da həm bədii təyin, həm də istiarə var, çünki insana xas keyfiyyət – şənlənmək ləpələrə aid edilib), sahilə gələn ağ kəlağayılı sevgili, onu ürəyi çırpına-çırpına gözləyən lirik qəhrəman... Necə də yadda qalan, zövqü oxşayan, ruha qida verən lövhə.

Bu kiçik şeir parçasında həm də onu görürük ki, şairin poeziyası bədii təsvir vasitələri ilə necə zəngindir. Bu zənginliyi görmək xatirinə bir misal da gətirim:

Yuxusuz bir beyin – susuz bir bulaq,
Çalğısız əyləncə – tüstüsüz ocaq;
Yelkənsiz bir gəmi – ruhsuz bir cəsəd.
Budur azadlığa yabançı millət!

"Azadlıq dastanı" poemasından götürülən bu dörd misrada, əvvəla, ustalıqla yaradılmış altı bədii təyin var; ikincisi, üç tutarlı bənzətmə diqqəti cəlb edir; üçüncüsü və ən tutarlısı: yuxusuz beyinlə susuz bulaq, çalğısız əyləncəylə tüstüsüz ocaq, yelkənsiz gəmiylə ruhsuz cəsəd azadlığa yabançı olan azadlıq uğrunda mübarizə aparmayan millətlə yanaşı qoyulur, dördüncü bənzətmə meydana çıxır və bütün bunlar şair fikrinin daha qüvvətli çıxmasında müstəsna əhəmiyyət kəsb edir.

Müşfiq yeni poetik formalar yaratmaq cəhətində də öz qələm yoldaşlarından seçilən, fərqlənən şairlərimizdəndir. Qeyd edim ki, narahat bir sənətkar olan Müşfiq onu məşğul edən, düşündürən, nifrət və məhəbbətinə, kədər və sevincinə səbəb olan məsələlərin ecazkar ifadəsi üçün həmişə çırpınmış, rəngarəng mövzulu, məzmunlu poeziyasında əlverişli poetik formaların da olmasına çalışmış, bu sahədəki axtarışını heç vaxt dayandırmamışdır.

Ənənənin rolunu çox düzgün başa düşən, novatorluğu layiqincə qiymətləndirən şair istər şifahi xalq şerinin, istərsə də klassik şerin poetik formalarına həmişə həssaslıqla yanaşmış, bunların çoxunu: qoşma, gəraylı, bayatı, oxşama, rübai, məsnəvi, üçlük, dördlük (mürəbbe), beşlik (müxəmməs), altılıq (müsəddəs), yeddilik (müsəbbe), səkkizlik (müsəmmən), tərcibənd, tərkibbənd, müstəzad və s. poeziyasında işlətmişdir. Şairin Qərb şeirinin poetik forması olan sonetə biganə qalmadığını, sonetlər yazdığını və yeri düşdükcə özünün də yeni poetik formalar yaratdığını qeyd etsəm müəllifin bu sahəyə nə qədər böyük əhəmiyyət verdiyi aydınlaşır.





Şair özünəməxsus bir formada yazdığı "Tərtərhes nəğmələri" və "Mingəçevir həsrəti" əsərlərində üçlükdən ibarət 15 misralıq bənd yaratmışdır ki, burada birinci üçlüyün iki misrası öz aralarında qafiyələnir, üçüncü misra isə o biri üçlüklərin üçüncü misraları ilə həmqafiyə olur. "Tərtərhes nəğmələri" əsərində bir bəndi gözdən keçirək:

Hər yamacda bir tamaşa,
Könlüm uçur dağa-daşa
Seyr etdikcə təbiəti.
Dağ başında duman gözəl,
Bu qaralan orman gözəl,
Könlümdədir məhəbbəti.
Kim der sənə yaman, dünya,
Sən gözəlsən aman, dünya,
Ey günəşin əmanəti!
Keçmişin göz yağmurundan
Ürəyinin çamurundan
Seçməliyiz şikayəti.
Ey əzəldən yığın-yığın,
Ölən, qalan insanlığın
İlk cənnəti, son cənnəti!

Şairin poeziyası vəzn cəhətindən də maraqlıdır. O, demək olar ki, heca vəzninin bütün bölgülərində (üç hecalıdan tutmuş iyirmi hecalıya qədər), əruz vəzninin əsasən, həzəc və rəməl bəhrlərində əsərlər, eləcə də sərbəst şeirlər yazmışdır.

... Tar"ı və eləcə də "Zəfər səsləri", "Gecə çeşməsi" şeirlərini tam heca vəznində yazılmış şeirlər kimi götürmək olmur. Bu şeirlər heca vəzninin hər ritm vahidi üç təqtidən ibarət formasında

olsalar da, tam heca deyillər, zahiri görünüşünə, misralarda hecaların qeyri-bərabərliyinə görə bu şeirlər sərbəstə oxşasalar da, sərbəst də deyillər. Bəs onda bu şeirlər hansı vəzndə yazılmışdır? Bu, Müşfiq icadıdır, heca ilə sərbəsti yaxınlaşdıran bir vəzndir. Müşfiq vəznidir və bu vəznin poeziya tariximizdə yeganə nümunələrini Müşfiq yaratmışdır. Ona qədər nə heca vəznində, nə də sərbəstdə yazılan əsərlər arasında belə nümunələrə təsadüf olunmamışdır. Elə düşünürəm ki, bundan sonra Müşfiq poeziyasının və eləcə də Azərbaycan ... şerinin vəznlərindən danışılarkən heca vəzni, əruz vəzni, sərbəst vəzn istilahları ilə yanaşı, Müşfiq vəzni istilahını da işlətmək lazım gələcəkdir”...

Sözü məharətlə yerində işlədəndir, sözə hakimdir Müşfiq.

Atamız dünyadan eh dedi getdi,
Tez sönən ömrünə meh dedi getdi.
Gül əkdi, vay dərdi cahan bağından,
Tökdüyü yaşlara şeh dedi getdi.

Mənalı səslərinlə şerim, incələş
bir kaman kimi!
Gecəm belə keçdi, səhərim gəlsin!
Dadıma sanballı sözlərim gəlsin!

Poeziyasında aforistik ifadələr kimi səslənən elə sanballı, elə mənalı misralar, beytlər var ki, bunların daşıdığı poetik fikir oxucular tərəfindən razılıq hissilə, sevinclə, ürəklərindən xəbər verirmiş kimi dərhal qəbul olunur. Məharətlə yaradılmış belə aforistik misraları, beytləri oxuyanda bədii sözün qüdrətinə, kəsərinə, təsirinə bir daha inanırsan.

Həyat həm gülməkdir, həm ağlamaqdır.

***





Zaman bir dərədir axıb dolanır,
Bəzən durulursa, bəzən bulanır.

***

Heyf, ömür qısa, arzu genişdir,
Kim bu qayğı ilə titrəməmişdir?

***

Bədbəxt bu dünyada tək yaşayandır.

***

Həyat ondan küsənləri incidər.

***

Cahan ki solmayan bir bağça-bağdır,
Burda rəvamıdır gülmədən ölmək!
Yazıq o şəxsə ki qaraqabaqdır,
Nə qədər yaraşır insana gülmək!

“Sənin gülüşlərin” şeirinin bu sonuncu bəndinin axırıncı beyti xalq arasında artıq zərb-məsəl kimi işlənməkdədir.

Poeziyası dedikcə musiqilidir, ahəngdardır, emosionaldır Müşfiqin:

Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.
Göydə iki qara bulud çatılaraq,
İldırımlar şaqqıldayır şaraq-şaraq,
Quşlar uçur yuvasına fırıl-fırıl,
Şırıldayır navalçalar şırıl-şırıl.

Mikayıl Müşfiq bir sənətkar olaraq daima öz sənətini inkişaf etdirmək üçün çırpınmış, özündən narazı qalmış, poetik duyğularının, böyük arzularının ifadəsi üçün münasib, uyğun bədii təsvir

vasitələri tapmağa çalışmış, yeni forma axtarışlarını bir an belə olsun dayandırmamışdır. "Sabir üçün" şerində o, ürəkdən gələn səmimiyyətlə nə gözəl demişdir:

Neyləyim ki, fikrim kimi qəşəng olsun nəğmələrim?
Parlaq bahar səmasilə həmrəng olsun nəğmələrim?
Sevinclərlə uğuldayan bir zəng olsun nəğmələrim?
Bir işıqlı, bir ətirli çələng olsun nəğmələrim?

Əlbəttə, şairin özünə müraciətən dediyi bu sözləri onun sənət əhli qarşısında qoyduğu tələb kimi də başa düşmək olar. Müşfiq söz yox, düşündürücü poetik suallarının cavabını yalnız gecəli-gündüzlü işləməkdə, "bir kəlmə bulmaqçın əzaba, zəhmətə qatlaşmaqda", "sanballı sözləri dadına" çağırmaqla tapmış, bədii yaradıcılıqda istedadla bərabər gərgin əməyin də böyük rolunu qiymətləndirməyi unutmamışdır. Zəhmətsevər şair özünə nə rəva bilmişdisə, bunu qələm yoldaşlarına da məsləhət görmüş, onları sənət aləmində xarüqələr yaratmağa səsləmişdir:

Ey bizim dünyanın söz deyənləri,
Ruhun dodağına tutun neyləri.
Bir nəğmə çalın ki, heyrətdə qalsın
Bütün dövrlərin müğənniləri.

Müşfiq belə bir şair olmuşdu və belə bir şair olaraq da qalır. Axı o, yalnız cismən aramızda yoxdur, poeziyası isə yaşayır, öz işini görür, poetik təsirini göstərir. Bəli, müasir Azərbaycan poeziyasını Müşfiqsiz təsəvvür etmək mümkün deyildir. Bu, şairin sağlığında da belə idi, indi də belədir və belə də olacaqdır.

Bu gün şerimizin ümumi vəziyyətindən, yaxud ayrı-ayrı şairlərin yaradıcılığındakı bu və ya digər nöqsandan danışılarkən haqlı olaraq M.Müşfiq şeiri əsl poeziya nümunəsi kimi örnək göstərilir. Şairin qələm yoldaşı Rəsul Rza 1978-ci ildə yazırdı:





"Müşfiq yaradıcılığından danışarkən bugünlü şerimizin bir sıra aktual məsələləri haqqında bəzi fikirlər söyləmək lazım gəlir.

Təbiətə aludəlik, təbiət mənzərələrinin əbədi gözəlliklərini təkrar-təkrar vəsf etmək, standart sevgi motivləri, sızıltılar, intim məhəbbət macəraları bugünlü poeziyamızın kəsərliliyini, vətəndaşlıq pafosunu azaldır, ayrı-ayrı gənclərimizin yaradıcılıq yönünü arzu olunmayan bir yola çəkir.

Belə fikir yarana bilər ki, mən təbiət təsviri, sevgi, ülfət məsələlərindən uzaqlaşmağı təbliğ edirəm. Yox, yüz dəfə yox. Müşfiqin şerinə diqqət edin. Bu şeirdə təbiət mənzərələri, ülfət motivləri yoxdurmu? Var, ancaq necə? Belə şeirlərin çoxunda yeni duyum, orijinal, təzə söz var:

Fikrim, hissim, xəyalım o qədər yüksəldi ki,
Mənə elə gəldi ki,
Bizlərdən əvvəl nə göy, nə yer, nə torpaq olmuş...

– deyə Müşfiq onu əhatə edən aləm, təbiət, varlıq haqqında elə yazmışdır ki, bu sətirlər yalnız var olan aləm haqqında deyil, onun ümumi dəyəri, bəşəri mənası haqqında düşünməyə yol açır.

Bu poetik deyim Müşfiqə aiddir, onundur, ona məxsusdur.

Təbiət mənzərəsini qələmə alırsan, sevgidən, məhəbbətdən yazırsansa, öz yolunu tap, özünəməxsusluğun görünsün". Haqlı idi xalq şairi Rəsul Rza.

Müşfiqin nümunə göstərilməsi, ondan öyrənməyə çağırış mətbuatımızda tez-tez səslənir. Bu da, söz yox, bir daha onu göstərir ki, Müşfiq ənənəsi yaşayır, yeni-yeni gələn ədəbi nəsillərə bir örnək olur. Qırxıncı illərin ikinci yarısında ədəbiyyata gələn ədəbi nəslin nümayəndəsi Əliağa Kürçaylı şairin 70 illiyi qeyd olunarkən necə də ürəkdən gələn səmimiyyətlə, vurğunluqla Müşfiqə, onun həmişəyaşar poeziyasına münasibətini bildirmişdi:

"Qalsaydı, indi onun yetmiş yaşı tamam olurdu. Lakin kimsə onu yetmiş yaşında təsəvvür edə bilməz. Dahilərin dahiliyinə

inanırıq, ancaq bir zaman uşaq və gənc olduğuna inana bilmirik. Inana bilmirik ki, Şandor Petefi, Lermontov və Yesenin saçı-saqqalı ağarmış qoca kişiyə çevrilə bilərdilər. Axı biz A.Eynşteynin və L.N.Tolstoyun, Füzulinin və Sabirin də nə zamansa sütül bir cavan olduqlarına inanmırıq, daha doğrusu, bunu təsəvvür belə edə bilmirik. Dahilərin dahiliyi, böyüklərin böyüklüyü, yaşından asılı olmayaraq, şöhrət zirvəsinə çatdığı anda həkk olunub qalır, təsəvvürlərin aydın ekranında əbədiyyətə köçürülür.

Qərinələr keçəcək, bir-birini əvəz edən nəsillər poeziya ümmanına baş vurarkən onunla rastlaşacaq, saçları gecənin gözündən qara, gözləri işıq gölü cavan dahini elə bu yaşda görəcək, poeziyasındakı yaşlılara məxsus müdrikliyi, heyrətlə, təəccüblə dərk edəndə deyəcəklər: “Bu yaşda bu təb, bu ilham, bu dərinlik? Görünür, o zamanlar insanlar qocalmırmış, elə beləcə cavan olurmuşlar, ömürlərinin axırına qədər...”

Həqiqi poeziyaya zaval yoxdur. O yaşayır, həmişə də yaşayacaq.

**Gülhüseyn Hüseynoğlu,**
*Xalq yazıçısı*





## Mikayıl Müşfiqin həyat və yaradıcılığının əsas tarixləri

***Mikayıl Əbdülqadir oğlu İsmayılzadə 1908-ci il iyun ayının 5-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.***

**1915** - Rus-Azərbaycan məktəbinə daxil olmuşdur.

**1926** - Əruz vəznində yazdığı ilk “Ölkəm” şeiri “Gənc işçi” qəzetinin 9 may tarixli nömrəsində dərc olunmuşdur;
- Orta məktəbi başa vurmuşdur.

**1927-1928** - V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyat şöbəsinə daxil olmuşdur.

**1930** - “Küləklər” adlı ilk kitabı çapdan çıxmışdır.

**1931** - Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsini bitirmişdir.

**1932** - “Günün səsləri”; “Vuruşmalar”; “Pambıq”; “Bir may”; “Buruqlar arasında” kitabları nəşr olunmuşdur.

**1934** - Yeni yaradılmış Azərbaycan Yazıçılar İttifaqına (indiki AYB) üzv seçilmişdir.

**1935** - “Kəndli və ilan” və “Qaya” kitabları çapdan çıxmışdır.

**1936** - "Səhər" poeması Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 15 illiyi münasibətilə keçirilən müsabiqədə "Yeddi yaxşı ədəbi əsər" mükafatına layiq görülmüşdür.

**1937** - İyun ayının 3-də tarixində əksinqilabi-millətçilik fəaliyyətinə görə repressiya olunmuşdur.
- Noyabr ayının 2-də XDİK-in 00486 №-li əmrinə əsasən əksinqilabi-millətçilik fəaliyyətinə görə həbs edilmişdir.

**1938** - Yanvar ayının 6-da əksinqilabi-millətçilik fəaliyyətinə görə güllələnməyə məhkum edilmişdir.

**1968** - Heykəltəraş Münəvvər Rzayeva və memar Şəfiqə Rzayeva tərəfindən abidəsi hazırlanmışdır.

**1970** - İyun ayının 9-da Bakı şəhəri, Yasamal rayonu İnşaatçılar prospekti və N.Nərimanov küçələrinin kəsişməsində abidəsinin açılışı olmuşdur.

**1977** - Adının ədədiləşdirilməsi məqsədilə Xəzər Gəmiçiliyi İdarəsi tərəfindən "Mikayıl Müşfiq" quru yük gəmisi suya buraxılmışdır.

**1988** - Aprel ayının 20-də Azərbaycan Respublikası Ali Sovetinin 1096-XI saylı fərmanı ilə Müşfiqabad - yeni şəhər tipli qəsəbə yaradılmışdır;
- 80 illik yubileyi çərcivəsində Tofiq Novruzovun, Cabir Novruzun, Aydın Zeynalovun, Nəbi Xəzrinin təşəbbüsü ilə Xızı rayonunun Sayadlar kəndində şairin atası Əbdülqədirin bağ evinin yerində "Mikayıl Müşfiq ocağı" – yaradılmışdır. Muzeydə şairə simvolik məzar qoyulmuşdur.





**1989** - Sayadlar kəndində xeyriyyəçi polkovnik Əbülhəsən Əhmədovun şəxsi təşəbbüsü ilə büstü qoyulmuşdur (memar Münəvvər Rzayeva).
- Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda yaşadığı binaya (S.Rəhimov küçəsi, 108) xatirə lövhəsi vurulmuşdur.

**1993** - Qaradağ rayonunda şairin adını daşıyan qəsəbədə abidəsinin açılışı olmuşdur.

**1998** - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Mikayıl Müşfiqin 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

**2004** - Mədəniyyət Nazirliyinin sərəncamı ilə Xızıdakı "Mikayıl Müşfiq ocağı" "Mikayıl Müşfiq xatirə muzeyi" statusu almışdır.

**2005** - Dilbər Axundzadənin "Müşfiqli günlərim" kitabının təkmilləşdirilmiş nəşri "Gənclik" nəşriyyatında işıq üzü görmüşdür.

**2007** - 16 apreldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Mikayıl Müşfiqin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

**2008** - İyun ayının 23-də 100 illik yubileyi ilə əlaqədar Xızı rayonunun Sayadlar kəndində şairin yeni bərpa olunmuş evinin təntənəli açılışı olmuşdur.
- Anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərpoçt" birliyi marka buraxmışdır.

- Qaradağ Rayon İcra Hakimiyyətinin "Müşfiqsevərlər" Cəmiyyətinin təşkilatçılığı ilə 100 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

**2018** - May ayının 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Mikayıl Müşfiqin 110 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır.





## Mikayıl Müşfiq poeziyasından sətirlər

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

***

Oxu, tar, oxu tar!...
Səsindən ən lətif şeirlər dinləyim.
Oxu, tar, bir qadar...
Həğməni su kimi alışan ruhuna çiləyim.
Oxu, tar
Səni kim unutar?
Ey geniş kütlənin acısı, şərbəti
Alovlu sənəti.

***

Söz insan ömrünün düşüncəsidir.
Söz qəlbin pakizə bir qönçəsidir.

***

Azadlıq dünyanın dərin ruhudur;
Azadlıq sənətin, şeirin ruhudur.
Bu sözlə qaplamış hər yeri şadlıq,
Dar gəlmiş çoxuna geniş azadlıq.
Azaddır hər günəş nur saçmasında
Şaşqın bir yolçuya yol açmasında.

Azaddır, baxınız, bütün fələklər,
Buludlar, dalğalar, quşlar, küləklər...

***

Şair yeni-yeni sözlər bulacaq
Kainat olduqca şeir olacaq!

***

Xalqilə titrəyən, xalqilə gülən,
Vətənçin yaşayan, Vətənçin ölən,
Səmimi bir insan nə bəxtəvərdir!

***

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən,
Dostdan, aşınadan necə əl çəkim?

Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən,
Bu əngin fəzadan necə əl çəkim?

***

Heyf, ömür qısa, arzu genişdir,
Kim bu qayğı ilə titrəməmişdir?

***

Sən onun eşqilə, məhəbbətilə,
Vurmadın ömrünü başa, ürəyim,
Sevgi hədəfinə nişan alanda
Dəydimi oxların daşa ürəyim?!





***

Hicran dəryasında qəlbim bir ada,
Fırtınam ziyada, dalğam ziyada,
O qızlar gözəli düşəndə yada,
Az qalır xəyalım şaşa ürəyim!

***

Biri vardı, biri yoxdu...
Bir şair vardı, od kimi alışıb
yanardı, yandırardı...

***

Cocuq insanlığın əbədiyyəti,
Şərəfli torpağa şərəf qüvvəti
Biz ayız, günəşiz, ulduzlar cocuq.
Yaşa bu dünyada bəxtiyar, cocuq!

***

Hər şeyin anası, qaynağı sənsən!
Sənin varlığına ölüm-itim yox,
Sən bütün-bütünə ruhsan, bədənsən,
Gözəl torpaq, sənə çox borcluyam, çox!

***

Yazalım, özümüzü öyməyəlim,
Füzuliyə dəyməyəlim.

***

Kim der sənə yaman, dünya,
Sən gözəlsən aman, dünya.

***

Gecəm belə keçdi, səhərim gəlsin!
Dadıma sanballı sözlərim gəlsin!

***

İşləyib murada irəlim, gəlin,
Hər daldan bir çiçək dərəlim gəlin.
Günəşin önündə bir çəmən kimi
Fəyyaz ruhumuzu sərəlim, gəlin.

***

Bu vəfasız ömür, bu coşqun bərə
Gərək boş-boşuna axıb keçməsin!
Bu gözəl cahanı sanıb pəncərə,
Hər gələn sadəcə baxıb keçməsin!

***

Mənim xəyalımda vardır hər zaman
Qartal təbiətli bir insan olmaq.
Səslənib, səslənib dağlar başında
Əsən küləklərlə həmzəban olmaq.

***

Gurlayın, ilhamım, sənətim gurlasın!
Fırtınam, qasırğam, qüdrətim gurlasın!
Şimşəyim parlasın, zülmətim gurlasın!
Ey məni sərazad bəsləyən küləklər,
Bir dağın başından səsləyən küləklər!

***

Sən canı candan ayrı tutmadın,
Odur ki, vəfasız deyildir adın,
O səni unutdu, sən unutmadın,
Yaşa məhəbbətim, yaşa, ürəyim!

***

Ey şeir yazmaqla keçən günlərim.
Siz ki, ən vəfalı günlərimsiniz.





***

Ey şair!
Düşün öz-özünə sən bir cahansan,
Başqadır gərdişin, başqadır yerin.
Gözlərdən, doğrudur, bu gün nihansan,
Bunun nə eybi var, könüldür yerin!...

***

Gəlin, arzumuza çatalım, dostlar!
Dağları dağlara qatalım dostlar!

***

Xoşdur gözəl görüb bütün elləri
Çalışmaq, yaşamaq, sevmək, sevilmək.
Xoşdur xilqətdəki hər gözəlliyi
Ürəkdən duyaraq anlaya bilmək.

***

Budur həyatdakı gözəllik ancaq:
Qüvvətli yaşamaq, canlı yaşamaq!

***

Qarşımda nazlanıb yenə gülürsən,
Bilsən gülüşlərin nəyə bənzəyir?
Mən desəm artıqdır özün bilirsən
Lalə yarpağında şahə bənzəyir.

***

Mənim könlüm deyir ki,
hələ bunlar nədir ki...
Böyük günlər, şanlı günlər, şən günlər
Yoluna düşən günlər
hələ qarşımızdadır.

***

Keçən günlərimi vərəqləyirkən
Sevdalı dillərin yadıma düşdü.
Xəyalın qarşımda canlandı, birdən
Göyərçin əllərin yadıma düşdü.

***

Bu gözəl aləmi gəzdikcə dağ-dağ,
Oldum sevincinə, qəminə ortaq.
Ey söyüdlü dərə, ey dumanlı dağ,
Səfaya daldığım yerdir bu yerlər!

***

Ey çocuq ruhu şən Göygöl;
Köкsü almas кimi rövşən Göygöl!
Mən də olsaydım əgər bir şair
Səni həqqilə edərdim təsvir.
Mən кi şair deyilim, bir gəncim,
Yanıyor odlu əməllərlə içim.

***

Cavan ömrüm bir mum kimi sönərkən,
Yüksəklərdən alçaqlara enərkən,
Əməllərim bir səraba dönərkən,
Çaxıb verdim şimşəklərə könlümü.





## Görkəmli şəxsiyyətlər Mikayıl Müşfiq haqqında

Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad və o dövrdə yaşamış başqa sənətkarlar öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər. Onlar öz əsərləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışlar.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Böyük şair Mikayıl Müşfiq milli folklordan və klassik ədəbi ənənələrdən layiqincə bəhrələnməklə yaratdığı dərin lirizmə malik və doğma dilin bütün gözəlliklərini özündə ehtiva edən bənzərsiz poetik nümunələrlə Azərbaycanın çoxəsrlik bədii fikir xəzinəsini daha da zənginləşdirmişdir. Forma yeniliyi, məzmun genişliyi, romantik əhval və yüksək həyat eşqi bu söz sənəti incilərinin başlıca keyfiyyətləridir. Müşfiqin adı 1930-cu illər totalitarizminin qurbanına çevrilmiş məsum insanların xatirəsinin rəmzi və nakam şair obrazı kimi xalqın yaddaşında yaşamaqdadır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Hər bir şairin tərcümeyi halına böyük ictimai marağın olması ilk növbədə ondan irəli gəlir ki, ya şairin yaradıcılığı tərcümeyi-halının, ya da tərcümeyi-halı yaradıcılığının birbaşa davamı olur. Müşfiq şeirlərində dediyi kimi yaşamağa çalışsa da, bacarmadı, daxilindən gələn təklik kompleksi ona imkan vermədi. Onu son mənzilə coşqun taleyinin özü heç kimlə məsləhətləşmədən gətirib çıxardı.

**Nizami Cəfərov,**
*akademik*

Müşfiq canlı, oynaq xalq dilində yazır, bu dilin incəliklərini şeirə gətirməklə kəlamının bədiiliyini, təsir gücünü artırırdı. Şeirimizin ənənəvi təsvir və ifadə vasitələri, obrazlar sistemi onun əsərlərində bir qayda olaraq təzə məzmun kəsb edir, yeni libasda cilvələnirdi. Onun bir şair kimi formalaşmasında klassik irsin çox ciddi rolu olmuşdur.

**Bəkir Nəbiyev,**
*akademik*

Mikayıl Müşfiq özünəməxsus poetik aləmi olan, coşğun ehtiraslı və parlaq, nikbin təbiətli bir şairdir. O, həyatdan çox erkən getmişdir, ancaq özündən sonra gerçəkliyi yeniləşdirən daha da gözəlləşdirən yaradıcılıq sevinci ilə dolu alovlu lirik nümunələr qoymuşdur.

***

Cəmi on il yaradıcılıq həyatı keçirmiş bu coşqun istedad müasir şeirimizin tarixində parlaq izlər buraxmışdır. Onun siması qələm yoldaşlarının xəyalında atəşin təbə malik səmimi bir şair, çağlayan ilhamı ilə xalqa xidmət etməkdən yorulmayan gözəl bir vətəndaş, nəcib bir insan kimi yaşamaqdadır.

***

Müşfiq əsasən lirik bir şair idi, lakin son vaxtlarda o çox həvəslə gözəl poemalar yazmağa başlamışdı. Məncə, bu, istedadlı lirik şairin yaradıcılığında yeni bir hadisə idi. O, şairlərimiz içərisində türk dilini bilməsi və dil zənginliyi etibarilə ən irəlidə gedənlərdəndir.

**Məmməd Arif,**
*akademik*

Ömrümüzün hər çağında Müşfiqin büllur kimi saf, axıcı misralarını xatırlayacaq, nəğmələrini dinləyəcək, amma içəri dünyamızda daimi onun tükürpədici harayını da eşidəcəyik, "necə əl çəkim" rədifi qəlbimizdə həmişə qubar edəcək, döyünəcəkdir. Bu





rədifin, bu misraların çıxılmaz kədərini, yanğısını, həsrətini ömür boyu duyacayıq.

**Anar,**
*Xalq yazıçısı*

Müşfiq xoşbəxt şairdir. Xalq onun adını çağırmaq, səsini eşitmək üçün övladlarına Müşfiqin adını qoymuşdur. Bu səadət hər sənətkara nəsib olmur. Müşfiq şair idi: indi şagirddir, tələbədir, həkimdir, mühəndisdir, müəllimdir. Belə sənətkarlar ölmürlər, bir dəfə doğulurlar həmişə yaşayırlar.

**Nəriman Həsənzadə,**
*Xalq şairi*

Ürəyi fərəhlə dolandı, gözlərində sevinc,
yazardı, yaradardı sakit və dinc
Nə dilində giley qalmadı, nə gözlərində kədər.
Oxşayırdı könlünü dillərdə,
Dodaqlarda gəzən Mikayıl Müşfiq imzalı nəğmələr.

***

Mikayıl Müşfiq! Bizim qələm yoldaşımız, dostumuz, qardaş kimi sevdiyimiz, açıq ürəkli şair! O, vətəni sevən, bütün əməkçi insanlara böyük məhəbbət bəsləyən yaxşı bir insan idi.

***

Geniş salon ağzına qədər adamla dolmuşdur. Alqış səsləri dərələrdən şaqqıldayıb gələn gurultulu selləri xatırladırdı. Qarabuğdayı oğlan sağ əlini qaldırıb adamları sakit etmək istəyir, lakin alqış səsləri susmaq bilmir. Kürsüdə bir an səssiz dayanan bu cavan Müşfiqdir. Mikayıl Müşfiq!... Gənc şair Mikayıl Müşfiq şeir oxuyur. Bəli, o, gənc idi. O, olduğundan daha artıq qüdrətli, daha gözəl bir şair ola bilərdi.

**Rəsul Rza,**
*Xalq şairi*

Müşfiq böyük istedad idi. On bir ildə o, nə qədər gözəl şeir nümunələri yaratmışdır. Onda rahatlıq, həyat eşqi ilə sənət elmi ilə daima çırpınan bir ürək vardı. Hələ otuzuncu illərdə Səməd Vurğun onun istedadına yüksək qiymət vermişdi.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Oxumaq, öyrənmək, düşünmək, axtarmaq, tapmaq, işləmək, yazmaq, tüğyan edən duyğular selini, baş alıb gedən fikirlər silsiləsini şeirə çevirmək, bir anını belə boş keçirmədən xalqa, onun inkişafına xidmət etmək! Mikayıl Müşfiq həyatının mənasını bunda görürdü. Lakin qəlbini, beynini, bütün varlığını hüceyrə-hüceyrə, gilə-gilə əridib təzə əsərlər yazmağa, xalqa, cəmiyyətə gözü dolusu, kamınca xidmət etməyə onu qoymadılar. Şairin zərif rübabını qaba əllər sərt daşlara çırpıb sındırdılar, onun gözəl şeirlər deyən şirin dili əbədi susduruldu.

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Müşfiq poeziya aləminə təsadüfi gəlməmişdir. Onun xalqa deməyə həm sözü vardı, həm də ehtiyacı.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Müşfiq az yaşadı, qısa sürən həyatında xalqına sədaqətlə xidmət etdi. Elə yaralar var ki, zaman belə onları sağalda bilmir. Gəncliyimizin fırtınalı illərində mənə böyük qardaşı əvəz etmiş sevdiyim bir sənətkarın ölümü məni çox sarsıtmışdı. Bu yaranın ağrısını səssiz keçirtmək lazım idi. Ona bərkdən ağlamaq belə olmazdı.

**Nigar Rəfibəyli,**
*Xalq şairi*





Mikayıl Müşfiq az yaşadı. Lakin bu az müddətdə çox iş gördü. O, öz ölməz əsərləri ilə bərabər dünya ədəbiyyatının incilərini də doğma dilimizə çevirməyə macal tapdı. Yuxusuz gecələrin, gərgin əməyin hesabına çox sevdiyi xalqına itməz, batmaz, qəsb olunmaz bir sərvət bəxş etdi, ondan işıqlı xatirələr qaldı. Müşfiq ömrü gül ömrü kimi az oldu. "Gül ömrü" mənsur şeir müəllifinin dediyi kimi, az oldu, amma nəcib oldu, təmiz oldu.

**Mirvarid Dilbazi,**
*Xalq şairi*

Müşfiqin poeziyası vəzn cəhətdən digər şairlərinkindən fərqlidir. Çünki bu Müşfiq icadıdır, heca ilə sərbəsti yaxınlaşdıran bir vəzndir. Bu vəznin yeganə nümunələrini Müşfiq yaratmışdır. O, sözü məharətlə işlədən, sözə hakim olmağı bacaran şair olmuşdur.

**Gülhüseyn Hüseynoğlu,**
*Xalq yazıçısı*

Müşfiq haqqında düşünərkən böyük sənətkarımız Nəsimini xatırlayıram. Altı əsr əvvəl Nəsiminin başına gələnlər, altı əsr sonra ayrı qiyafədə, ayrı şəkildə onun layiqli övladı, sənət və tale balası Mikayıl Müşfiqin başına gəldi.

**Cabir Novruz,**
*Xalq şairi*

Müşfiq bir oddur ki, öz-özünü yandıracaq.

**Hüseyn Cavid,**
*şair, yazıçı və dramaturq*

Mikayıl Müşfiqi biz hamımız sevirdik. Amma Hüseyn Cavid onu daha çox sevirdi. Onun poeziyasını çox yüksək qiymətləndi-

rirdi. Bir dəfə mənə "poeziyanın nəhəngi" yetişməkdədir, özümüzü yığışdırmalıyıq Şaiq!" dediyi sözlərini heç unuda bilmirəm.

**Abdulla Şaiq,**
*şair, yazıçı, dramaturq*

Müşfiqdə son dərəcə incə, şair ruhu vardı. Kobud zarafatı, bayağı zarafatları sevməzdi. Danışığında da, yaradıcılığında da zərif yumor hiss olunurdu. Bu yumor, yəni əsl zəriflik mənasında zarafat mənimlə onun arasındakı dostluğun möhkəmlənməsi üçün, elə bil sement rolunu oynayırdı. Müşfiq ürəkdən gülməyi sevirdi.

***

Mən onun şeir yazmağına təəccüb edirdim. Elə bil gecə-gündüz çağlayıb axan bir bulaq idi. İşləməyinin, yazmağının vaxtı-vədəsi yox idi. Şəraitin əlverişli olub olmamasına baxmazdı. Bir qələm qırığı, bir parça kağızla ən böyük yaradıcılıq qələbəsi çalmağa nail olurdu.

**Sabit Rəhman,**
*yazıçı, dramaturq*

Müşfiq xalqın bütün təbəqələrini: istər əkinçi, istər fəhlə, istər ziyalı, istər dövlət xadimi, diplomat olsun, fərqi yoxdur, ahənruba kimi özünə çəkən, çoşduran şairdir. Mən onun şeirlərinə bəstələnmiş mahnıları oxuyan kimi salonda qopan ardı-arası kəsilməyən sürəkli alqışların altında istər-istəməz qəlbimdən bir fikir keçir "Müşfiqi yetirən xalq xoşbəxtdir".

**Zeynəb Xanlarova,**
SSRİ *Xalq artisti*

Müşfiqlə 1930-cu ildə Maarif İşçiləri evi kitabxanasında çalışdığım zaman yaxından tanış oldum. Şərqin dahi şairi Firdovsinin minillik yubileyi zamanı onun əsərlərindən Azərbaycan





dilində Müşfiqlə bərabər tərcümə etməyə başladıq. Firdovsini tərcümə etdiyimiz zaman Müşfiq yorulmaq bilmirdi. O, böyük inadla çalışır, mahir bir üzgüçü kimi söz dənizinə dalıb, yeni söz və ifadə inciləri tapmağa çalışırdı.

***

Mikayıl Müşfiq fitrən şair yaranmışdı. O, bütün varlığı ilə ədəbiyyata, sənətə bağlı idi. Müşfiq həyatında bir gün də olsun ilhamsız yaşamırdı.

**Mirmehdi Seyidzadə,**
*şair, dramaturq,*
*Əməkdar incəsənət xadimi*

M.Müşfiq dünyanın ən inqilabi, ən ideyalı ədəbiyyatı bədii cəhətdən də birinci cərgədə görmək istəyirdi.

**Cəfər Xəndan,**
*professor*

Zaman keçdi... Mən daha dərindən etiraf etməyə başladım ki, Azərbaycanın son dövr şairləri sırasında ən parlaq simalardan biri Mikayıl Müşfiqdir. Axı o, ədəbiyyatımızda seyrək təsadüf edilən istedad idi. Bu şeir heykəli bizim üçün əziz olduğu qədər gözəl, gözəl olduğu qədər də əzizdir.

**Əkrəm Cəfər,**
*dilçi, ədəbiyyatşünas*

...Müşfiq elə bir parlaq şəxşiyyət və nadir istedad sahibi olan şairdir ki, nəinki yeddi il müddətində, heç yetmiş il də kifayət etməzdi. Onun bir şair kimi ən qabarıq xüsusiyyətlərindən biri həqiqəti yazmasıdır. Müşfiqin elə bir ciddi əsəri yoxdur ki, orada şəxsən həyatda tanıdığı adamların surətini, mənəviyyatını qələmə almamış olsun.

**Dilbər Axundzadə,**
*şairin həyat yoldaşı*

Mənim teatr mədəniyyəti ilə yaxından tanış olmağımda Müşfiq müəllimin çox böyük rolu olmuşdur. Mən həyatı teatrsız təsəvvür etmədim. Göründüyü kimi nakam şairimiz Mikayıl Müşfiq mənim məktəbdə müəllimim olmaqla yanaşı, həm də həyat müəllimim olub. O, mənim gözlərimi açıb, məndə vətənpərvərlik hissi tərbiyə edib, həyatı mənə sevdirib, sənətə məhəbbət oyadıb.

**Məzahir Abbasov,**
*professor*

Müşfiq milli zəmin üzərində yüksələrək forma və məzmun cəhətdən yeni həyata xidmət edən sənət əsərləri ilə bu günün övladı olduğunu sübuta yetirdi. O, böyük arzularla yaşadı, təəssüf ki, az yaşadı. Qəlbində çağlayan, coşan mənəvi qüvvət və qüdrət, atəşin sənət sevgisi onun daim irəliyə, böyük sənət zirvəsinə aparırdı. Onun sənəti indi də yaşayır və ürəkləri fəth edir.

**Əmirxan Xəlilov,**
*professor*

Müşfiq işıqlı insan idi, nur parçasıydı, odlu vulkana bənzəri vardı. Şeir oxuyanda bu vulkan açıq aşkar görünərdi. Lakin tufana düşdü. Sanki belimi qırdılar, ürəyimdə həmişə sızlayan yara açdılar.

***

Mikayıl Müşfiq məndən 3 yaş kiçik olsa da, həyatı, dövrü məndən yaxşı görürdü, məndən yaxşı düşünürdü. Onun bəzi məsləhətlərini indi də xatırlayıb, ona rəhmət oxuyuram. Məsləhətini mənə təklikdə deyərdi. Bir ərəb alimi deyir ki, adam arasında kəsir demək onu təhqir etməkdir.

**Cəfər Rəmzi,**
*şair, ədəbiyyatşünas, tərcüməçi*





Müşfiq bizim nəsil üçün doğrudan da bir məktəb idi. Şeir məktəbi, qeyrət məktəbi və həqiqət məktəbi.

***

Müşfiq həqiqəti - Müşfiq şeiridir.

**Fikrət Sadıq,**
*şair, publisist*

Müşfiqin şeirlərini oxumağı, dinləməyi kim sevmir? Kimi bu görkəmli sənətkarın şeiriyyəti həyəcanlandırmır, düşündürmür?! Yaradıcılığa başladığım elə ilk vaxtlardan bu böyük sənətkarın heykəlini yaratmaq istəyirdim. Mən böyük qurur hissi keçirirəm ki, bu məsuliyyətli işin öhdəsindən gələ bildim.

**Münəvvər Rzayeva,**
*heykəltəraş*

Böyük şairimiz Mikayıl Müşfiqin poeziyası məni həmişə özünə məftun etmişdir. Vurğunu olduğum bu ölməz sənətkarın portretini yaradarkən çoxlu axtarışlar aparmalı oldum. Elə fırçamı da “Yenə o bağ olaydı” şeirinin sarı simi üstündə köklədim. İstədim ki, Müşfiqi çılğın, hər yeni söz üçün qağayı tək dənizə şığıyan sənətkar kimi yaradım.

**Hacıağa Nəzərov,**
*heykəltəraş*

Pislər zaman-zaman pislədi səni,
Onları almadın saya fəqət sən.
Ölmüşlər öldürmək istədi səni,
Ölmüşlər bilmədi əbədiyyətsən.

**Rəfiq Zəka Xəndan,**
*Əməkdar incəsənət xadimi, şair, yazıçı*

Müşfiq elə şairlərdəndir ki, əsərin məzmunu ideyası ilə bərabər, bəlkə ondan da artıq dərəcədə əsərin səslənməsinin gözəlliyinə fikir vermişdir. Səs təqlidi sözlər də musiqili olduğuna görə sənətkarın diqqətini cəlb edir. Buna görə də şeirdəki obrazlar, təsvirlər daha çox təbiilik, həyatilik tələb edəndə, poetik gözəlliyə, şeiriyyətə can atanda mahir sənətkar yerində səs təqlidi sözlər yaratmışdır.

**Aytək Abdullayeva,**
*M.Müşfiqin araşdırıcısı*
*(Gülhüseyn Hüseynoğlunun qızı)*





# Ə S Ə R L Ə R İ

## Kitabları

### 1930

**1. Küləklər:** şeirlər / Mikayıl Müşfiq.- Bakı: Azərnəşr, 1930.- 121, [2] s.: portr.- Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** Küləklər; 26-lar; Filiz türküsü; Telefon; Vapor və fırtına; And; Bir lövhə; İnqilab; Tozanaq; O zaman ki; Əllər; Ana; Rənanın ölümü; Yeni gənc; Torpaq və traktor; Dağlar; Teleqraf telləri; Gəzdiyim yerlər; Daş qartal; Sevgilər; Yarış; Oktyabr gecəsi; Komsomol türküsü; Qoşma; Gecə çeşməsi; Dilənçi; Bulutlar; Lenin; Öyrəniş; Qafqaz; Radio; Göy göl; Posta qutusu; Karl Libknext; İşçi qız; Əyyaş; Zahes; Bayram axşamı; Dün bu gün; Yeni Mayis; Pedtexnikum; Heykəl qarşısında; Xalı; Qaçaqaç; Çırpınış; Gülüşlər; Çadralı qızlarımıza; Mədəni hücum; Nümayiş; Düdük sədaları; Həsrətli qarı; And olsun; Əlvida.

### 1932

**2. Bir may:** poema /Mikayıl Müşfiq; red. Mehdi Hüseyn.- Bakı: Azərnəşr, 1932.- 14 s.- Mətn köhnə latın qrafikasındadır.

**3. Buruqlar arasında:** Oktyabrın 15 illiyinə ithaf: poema /Mikayıl Müşfiq; red. Cahangirzadə; üz qabığının rəs. Ə.Hacızadə.- Bakı: Azərnəşr, 1932.- 47 s.- Mətn köhnə latın qrafikasındadır.

**4. Günün səsləri** / Mikayıl Müşfiq; red. Mehdi Hüseyn.- Bakı: Azərnəşr, 1932.- 130, [2] s. - Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** Mehdi Hüseyn. Müşfiqin yolu. Başlanğıc; Yeni il; Proletar sənəti; Küləklər; İllər; Yeni il; Su və külək; Dnepr və Şevçenko; Sularda yanğın; Daş kömür; Neft-iliç buxtası; Ustalar; Son; Zəfər səsləri; Zəfərdən zəfərə; Firqənin sə-

si; Ehtiyac; Ziyançı; Qədim Bakı; İləri; Həyəcan; Hər şey coşqunda; Quruluş; Kəsir; Neft; Avral; Qurultay; Böyük işlər; Dönüş; Yarış; Çatmaq-ötmək; Rekonstruksiya; Çarxlarım; Buxta; Linotip; Pasyolka; Gözlərimiz; Keşikçi; Üçdən birə; Bizim otaqda; Ağ dənizdə fırtına; Yurdsuz; Bulaq başında; Bəyaz çöllər; Traktor; Mil düzü; Qədim karvan; Rücu; Mənim çağlayanım; Pambıq şaxları; Xitab; Avral; Qara lövhə; Axın; Ağacan; Baba yurdu; Buruq adamı; Binəqədiyə gedərkən; Fantan.

**5. Pambıq:** şeirlər / Mikayıl Müşfiq; red. Mehdi Hüseyn.- Bakı: Azərnəşr, 1932.- 14, [1] s.- Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** Pambıq; Şərqi; Son.

**6. Vuruşmalar:** Oktyabra hədiyyə / Mikayıl Müşfiq; red. Mehdi Hüseyn. - Bakı: Azərnəşr, 1932.- 34, [2] s.- Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** Başlanğıc; Dünya davası; Saldat getdilər; Davaya səbəb; Almaniya və İngiltərə; Hərbə gedənlər; Mollalar və keşişlər; Bolşeviklərin fikri; Yalqız kənd. Hərbdən gələnlər; Məktəb; Fevral inqilabı. Müvəqqəti hökumət; Kənd üsyanı; İclas; Rəhbər gizlində; Bolşeviklər; Üsyançılar; Lenin gəlmişdi. 17-ci il 10 oktyabr; Ağların zülmü; İşçi balaları; Zavod uşaqları; Saraya hücum. 25 oktyabr; Hərbi inqilab şurası; Son.

## 1934

**7. Şeirlər** / Mikayıl Müşfiq; red. Mehdi Hüseyn.- Bakı: Azərnəşr, 1934.- 172, [2] s.- Mətn köhnə latın qrafikasındadır.

***Kitabın içindəkilər*:** **Lirik şeirlər:** Tar; At; İliç buxtası; Zarges; Çamlar; Daş qartal; Pasyolka; Gözlərimiz; Teleqraf telləri; Torpaq və traqtora; 28 Aprel; Məktəbli şərqisi; Düdük sədaları; Temp; Keşikçi; Xalı; 26-lar; Bəyaz çöllər; Həsrətli qarı; Partizan Kraç və onun adyutantı Freqman. **Epik şeirlər:** Mənim dostum; Buruqlar arasında; Əfşan; Şölə; Çoban; Dezertir.

**8. Şəngül, Şüngül, Məngül:** nağıl / Mikayıl Müşfiq; red. Mirmehdi Seyidzadə; rəssamı Əmir.- Bakı: Azərnəşr, 1934.- 30 s.: şək.- Mətn köhnə latın qrafikasındadır.





## 1935

**9. Kəndli və ilan:** (el nağılı): ortayaşlı cocuqlar üçün / Mikayıl Muşfiq; red. Abdulla Şaiq; rəssamı M.Şirinov.- Bakı: Azərnəşr, 1935.- 18 s.- Mətn köhnə latın qrafikasındadır.

**10. Qaya:** poema: böyük və ortayaşlı cocuqlar üçün / Mikayıl Müşfiq; [red. Abdulla Şaiq].- Bakı: Azərnəşr, 1935.- 30 s.- Mətn köhnə latın qrafikasındadır.

## 1957

**11. Seçilmiş əsərləri:** 2 cilddə / Mikayıl Müşfiq; topl. və tərt. ed. Şəmsəddin Abasov; red. İ.Soltan; [müqəd. Mehdi Hüseyn].- Cild 1: Şeirlər.- Bakı: Azərnəşr, 1957.- 190, [2] s.- Mətn kiril qrafikasındadır.

***Kitabın içindəkilər*:** Mehdi Hüseyn. Coşğun istedad. Küləklər; Qonaq; Vapur və fırtına; Bir lövhə; Üsyana başla! Düşüncə; 28 aprel; Tozanaq; O zaman ki; Əllər; Ana; Yeni gənc; Torpaq və traktor; Teleqraf telləri; Gəzdiyim yerlər; Daş qartal; Oktyabr gecəsi; Komsomol türküsü; Qoşma; Bulutlar; Öyrəniş; Karl Libknext; İşçi qız; Camlar; Dün bu gün; Yeni Amyıs; Peltexnikum; Xalı; Çırpınış; Mədəni Hücum; Nümayiş; Məktəbli şərqisi; Düdük sədaları; And olsun; Əlvida; Başlanğıc; Xitab; Proletar sənəti; İllər; Yeni il; Su və külək; Sularda yanğın; Daş kömür; Neft-İliç buxtası; Ustalar; Son; Zəfər səsləri; Zəfərdən zəfərə; Firqənin səsi; Ehtiyac; Ziyançı; Qədim Bakı; İləri; Hər şey coğqunda; Quruluş; Kəsir; S.Rüstəmə; Neft; Avral; Qurultay; Dönüş; Yarış; Çatmaq-otmək; Rekonstruksiya; Çarxlarım; İliç buxtası; Pasyolka; Gözlərimiz; Keşikçi; Üçdən birə; Ağ dənizdə fırtına; Yurdsuz; Tar; At; Zahes; Çağlayan; Şeirim; Könlümün düdikləri; Torpaq; əmək; Ulduzlar; Gözəllik; Qadın; Axşam üstü; Şirin qız; Rəqs; Nə deməkdir; Sosyalizm yolçusu; Mənim beşilliyim;

Telefon söhbəti; Oxu!; Sənətkar; Dəvət; Əbədi sevgi; Bir günəş , bir baxış; Bir də baxsan mənə; Mənim eşqim; Sənin gözlərin; Sənin gülüşlərin; Həyat sevgisi; Bəxtiyar; Yalnız ağac; Buzlu yollar; Şən Tiflis; Sevan; Təzə ev; Körpü; Bulut qarşısında; Yağış yağarkən; Yenə o bağ olaydı!; Sabir üçün; Şairin ölümü; N.Ostrovski üçün; Ustamıza; Gecə; Güzgü qayıtdı; Qəzəl; Düşdü; Ürək; Maral; Qurban olduğum; Qurban; Neçin gəlmədin?; Yaşa könül; Küsmərəm.

**1960**

**12. Seçilmiş əsərləri:** 2 cilddə / Mikayıl Müşfiq; tərt. ed. Şəmsəddin Abasov; red.: Gülhüseyn Hüseynoğlu, İ.Soltan.- Cild 2.- Bakı: Azərnəşr, 1960.- 424 s.- Mətn kiril qrafikasındadır.

***Kitabın içindəkilər*:** Gülhüseyn Hüseynoğlu. Müşfiqin poemaları haqqında. **Şeirlər:** Həsrətli qarı; 26-lar; Bulaq başında; Göy gol; Bəyaz çöllər; Baba yurdu; Məbədlər çökərkən; Əbədiyyət nəğməsi; Mingəçevir həsrəti; Üç sağlıq; Tərtərhes nəğmələri; Duyğu yarpaqları. **Poemalar:** Əfşan; Buruqlar arasında; Çoban (Əfsanə); Mənim dostum; Şölə; Dezertir; Şair və vətəndaş; Azadlıq dastanı; Səhər; Sındırılan saz; Dağlar faciəsi; Şən teyflər; Yeddi aşıq. **Mənzum oçerklər:** Buruq adamı; Fantan; Yüksəliş. **Uşaq əsərləri:** Bir May; Pambıq; Vuruşmalar; Qaya; Şəngül, Şüngül, Məngül; Kəndli və ilan; Tərcümələr: Ömər Xəyyam Rübailər.

**13. Şəngül, Şüngül, Məngül:** [kiçikyaşlı uşaqlar üçün: nağıl] / Mikayıl Müşfiq; [rəs. A.Hacıyev; red. İlyas Tapdıq].- Bakı: Uşaqgəncnəşr, 1960.- [8] s.: şək.- Mətn kiril qrafikasındadır.

**1965**

**14. Duyğu yarpaqları:** şeirlər, poemalar / Mikayıl Müşfiq; tərt. ed. və red. Gülhüseyn Hüseynoğlu.- Bakı: Azərnəşr, 1965.- 245, [7] s.: portr.

***Kitabın içindəkilər*:** Gülhüseyn Hüseynoğlu. Müşfiq lirikasının bəzi xüsusiyyətləri haqqında. **Şeirlər:** Ana; Xalı; 28 Aprel; Tozanaq; Bir lövhə; Telefon söhbəti; Küləklər; Ay qız; Daş qartal; Yadıma düşdü; Qoşma; Eşqim; And olsun; Əllər; Qoşma; Gün – bu gün; Qafqaz; Bəyaz çöllər; İliç buxtası; Baba yurdu; Sürət bayramı; At; Tap; Şairin ölümü; Həyat sevgisi; Mingəçevir həsrəti; Bəxtiyar; Əbədiyyət nəğməsi; Şeirim; Üç sağlıq; Könlümün dedikləri; Tərtərhes nəğmələri; Sənətkar; Sosializm yolçusu; Nə deməkdir?; Oxu; Torpaq; Yalnız ağac; Sənin gözlərin; Bir də baxsan mənə; Sənin gülüşlərin; Ulduzlar; Mənim eşqim; Axşam üstü; Gözəllik; Mənim beşilliyim; Rəqs; Yağış yağarkən; Şirin qız; Bir günəş. Bir baxış; Dəvət; Çağlayan; Təzə ev; Yenə o bağ olaydı!; Duyğu yarpaqları; Sən və mən; Gecə düşüncəsi; Sabir üçün. **Poemalar:** Səhər; Sındırılan saz.

**15. Kəndli və İlan**. **Şəngülüm, Şüngülüm, Məngülüm**: mənzum nağıllar / Mikayıl Müşfiq.- Bakı: Azərnəşr, 1965.- 32 s.: şək.

